# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 114** **Bakı şəhəri, 28 mart 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli qərarı ilə təsdiq edilmiş “Elektrik enerjisindən istifadə Qaydaları”nda dəyişikliklər edilməsi barədə**

“Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanının 5.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121; 2006, № 1, maddə 59; 2009, № 1, maddə 32, № 10, maddə 846; 2010, № 1, maddə 49; 2012, № 2, maddə 183; 2013, № 6, maddə 738; 2014, № 1, maddə 69, № 2, maddə 201, № 7, maddə 925; 2016, № 4, maddə 772, № 5, maddə 955; 2017, № 3, maddə 478) ilə təsdiq edilmiş “Elektrik enerjisindən istifadə Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.6-cı bənddə “Azərbaycan Respublikasının Energetika Nazirliyinin “Dövlət Enerjinəzarət” İdarəsinin (bundan sonra - “Dövlət Enerjinəzarət” İdarəsi)” sözləri “Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (bundan sonra - Enerji Məsələlərini Tənzimləmə Agentliyi)” sözləri ilə əvəz edilsin.

**2.** 2.4-cü, 2.5-ci, 3.2-ci, 3.7-ci, 6,4-cü, 7.15-ci bəndlərdə (hər iki halda), 3.5-ci, 6.1-ci, 7.4-cü, 8.35-ci, 9.1-ci, 9.9-cu, 9.12-ci, 9.22-ci, 10.12-ci, 10.17-ci, 10.20-ci, 11.10-cu, 11.13-cü, 12.12-ci bəndlərdə, 9.3.4-cü, 9.3.8-ci, 9.3.9-cu, 9.8.1-ci, 9.8.3-cü, 9.8.5-ci, 9.12.8-ci, 9.12.9-cu, 10.18.5-ci, 10.18.9-cu, 10.18.10-cu, 10.24.1-ci, 10.24.2-ci, 11.14.5-ci, 11.14.9-cu, 11.14.10-cu, 12.15.5-ci, 12.15.8-ci, 12.15.9-cu yarımbəndlərdə, 6.2-ci bəndin ikinci abzasında, 9.8.2-ci yarımbənddə (hər iki halda) ismin müvafiq hallarında “Dövlət Enerjinəzarət” İdarəsi” sözləri ismin müvafiq hallarında “Enerji Məsələlərini Tənzimləmə Agentliyi” sözləri ilə əvəz edilsin.

**3.** 6.2-ci bəndin birinci abzası ləğv edilsin.

**4.** Bu Qaydalara 1 nömrəli əlavə - “Enerjitəchizatı müəssisəsi ilə istehsal, dəmir yolu nəqliyyatı, elektrikləşdirilmiş şəhər nəqliyyatı müəssisəsi (bundan sonra - abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi”nin 18-ci hissəsində, 2 nömrəli əlavə - “Enerjitəchizatı müəssisəsi ilə qeyri-istehsal müəssisəsi, ticarət, ictimai iaşə və digər növ xidmət müəssisəsi (bundan sonra - abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi”nin 17-ci hissəsində, 3 nömrəli əlavə - “Enerjitəchizatı müəssisəsi ilə büdcədən maliyyələşdirilən təşkilat (bundan sonra - abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi”nin 17-ci hissəsində “Dövlət Enerjinəzarət” İdarəsinin” sözləri “Enerji Məsələlərini Tənzimləmə Agentliyinin” sözləri ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ***
***Azərbaycan Respublikasının***
***Baş naziri***